

Məlahət Hümmətqızı

# ATA YADİGARI

(Hekayə)

Mənim uşaqlıq xatirələrimdə piano ilə bağlı şirin anlar çoxdur. Atam musiqi həvəskarı idi. Məktəb yaşımız çatanda mənə və qardaşlarıma musiqi alətləri almışdı. Əməlli-başlı ailə ansamblımız vardı. O illərdən xatirə qalan şəkillərə baxanda kövrəlirəm. Valideynlərimiz ilə birlikdə çəkdirdiyimiz şəkillərdə o xoşbəxt illərimiz əks olunub. Qardaşlarım tarda, qarmonda, nağarada çalırlar, mən isə onları pianoda müşayiət edirəm. Nə gözəl mənzərədi...

Atam hər axşam işdən evə qayıdanda biz onu musiqi ilə qarşılayardıq. Elə qapının açılmasını gözləyirdik. Atamın qapıdan içəri girməyi ilə musiqinin səslənməsi bir olardu. O isə gülümsəyərək, başı ilə bizi salamlayar, əl hərəkətləri ilə daha da şövqlə çalmağa ruhlandırardı. Saatlarla oturub çaldığımız musiqiyə qulaq asar, məsləhətlər verərdi. Atamın vaxtsız ölümü ilə ansamblımız da fəaliyyətinə son verdi.

Hər birimiz musiqi məktəbini əla qiymətlərlə bitirmişik. Qardaşlarım atamın onlara aldığı musiqi alətlərini gələcək nəsil üçün qoruyub saxlayırlar. Ailəlikcə yığışanda hərdən o illəri yenidən yaşamaq istəyirik, bu vaxt musiqi alətləri dilə gəlir, ruhumuz dincəlir, atalı-analı günlərimizə qayıtmiş kimi oluruq.

Pianonu atam yeddi yaşıma hədiyyə etmişdi. Adı "Belarus" idi. Evimizin bu nəhəng qonağı ilə tez bir zamanda dostlaşdım. Gözəlliyilə evimizə yaraşıq verirdi. Həvəslə, yorulmadan yeddi il musiqi məktəbinə getdim. Motsart, Bethoven, Bax, Şopen və başqa dahi bəstəkarların yaradıcılığından bir-birindən maraqlı və ürəyəyatan musiqi parçaları - sonata, vals, prelüdiya, etüdlər ifa edirdim. Rəfiqələrim bizə gələndə mənim piano arxasında oturub həvəslə çaldığım musiqiyə səssizcə qulaq asar, şirmayi dillər üzərində sürətlə hərəkət edən barmaqlarıma heyrətlə baxardılar. Çox maraqlıdır ki, yeddi il musiqi məktəbinə getməyimə baxmayaraq, mənə bir dənə də olsun Azərbaycan musiqisi öyrətmədilər. Televizordan, radiodan, maqnitafondan eşitdiyim mahnıları zümzümə edərək pianoda çalmağı öyrənmişdim.

İllər keçdi. Mən ailə qurdum. Sevimli pianomla həmişə bir yerdə ola bilmədim. Hər dəfə bir evdən başqa evə köçməyimiz onu çox yordu və incitdi.

Aldığı çoxlu zərbələrdən gövdəsində cızıqlar, çapıqlar əmələ gəldi. Sonuncu dəfə köçdüyümüz kirayə mənzil binanın yuxarı mərtəbəsində yerləşdiyindən, otaqları isə kiçik olduğundan mən onu anamın razılığı ilə yaşadığı həyət evinə aparmalı oldum və onu anama həvalə etdim. Tez-tez olmasa da, ayda bir-iki dəfə anama baş çəkməyə gedəndə atamın neçə illik hədiyyəsi, mənim isə uşaqlıq dostum "Belarus"la salamlaşırdım. Onu dilləndirməmiş getməzdim. Qarşısında oturub doyunca çalardım. Ondan aldığım müsbət enerji gecələr sakit və rahat yatmağıma kömək edərdi. Eh... Kimlər xatırlanmırdı ki? Uşaqlıq illərimdə valideynlərimlə, qardaşlarımla, məktəbdəki rəfiqələrimlə keçirdiyim xoş günlər, unudulmaz anlar gözümün qarısında kino lenti kimi canlanırdı. Kədərli, ağladığım günlər də olurdu. Həzin, lirik mahnıların səsi bütün otaqları bürüyürdü. Anam musiqinin səsini eşidib, yanıma gəlir, divanda oturub əlləri qoynunda pianoda çalmağımı seyr edir, fikrə dalırdı. Gözlərindən axan yaşı görəndə kövrələrdim. Anam görməsin deyə, göz yaşımı ürəyimə axıdırdım. Bilirdim ki, mənim kimi anam da dünyasını vaxtsız dəyişmiş atamı düşünür, onunla keçən bəxtəvər günlərini xatırlayır...

Bütün ad günlərində, bayramlarda biz bacı-qardaşlar ailəliklə anamın başına yığışırdıq. Mən piano arxasına keçib, şən, oynaq musiqi çalırdım. Əl qaldırıb oynayanların, uşaqlı-böyüklü deyib gülənlərin səsi evi başına götürürdü. Elə bil evimizin bu ağır çəkili sakini də səsini ucaldaraq bizə qoşulub sevinirdi.

İllər keçdikdikcə, anamgildəki mebellər təzələndikcə, pianonu satmaq haqqında yeni fikirlər səslənirdi. "Çalan yoxdu, uşaqlar da dilini bilimir, onsuz da köhnədi, yer tutur" kimi fikirlər anamı çox əsəbiləşdirirdi və anam etiraz edib, onun heç vaxt satılmayacağını bildirirdi. Düzü, bu söz-söhbəti kənardan eşitsəm də, məni çox incidirdi. Çıxılmaz vəziyyətdə idim. Onu aparmağa nə evim, nə də yerim yox idi. Üzülürdüm, çox pis olurdum. Atamın yadigarını satmaq ağlımdan belə keçmirdi. Düşünürdüm, nə vaxtsa geniş evim olar, gəlib apararam. Kimə mane olur ki, bir küncdə səssiz-səmirsiz dayanıb, yemək, içmək də istəmir.

Anam sağalmaz xəstəlikdən dünyasını dəyişdi. Anamın qırx mərasimindən sonra mən göz yaşları içərisində, çarəsiz qalaraq atamın ad günümdə aldığı, sirlərimi bölüşdüyüm, otuz altı illik uşaqlıq dostumun, ürək sirdaşımın satılmağına razılıq verdim. Yazıq anam, ölən günə qədər ərinin yadigarını heç kimə vermədi. Axı bu piano ona təkcə həyat yoldaşının sevimli qızına aldığı hədiyyəsi deyildi, həmdə bu piano ilə bağlı onun da öz xatirələri var idi ki, ondan ayrıla bilmirdi, ayrılmaq istəmirdi.

(ardı 16-cı səhifədə)

# ATA YADİGARI

**(əvvəli 15-ci səhifədə)**

”Belarus” satıldı. Onun yeri isə həmişəlik boş qaldı. Ovcumda qalan iki ədəd yüzlük oldu. Pullara baxıb hönkür-hönkür ağladım. Göz yaşlarım onları tamamilə islatdı. Uşaqlıq dostumu iki yüz manata satdığıma görə xəcalət hissi keçirirdim və utanırdım. İllər boyu dərdimi bölüşdüyüm, ərköyünlük etdiyim, onu bir evdən başqa evə daşıyaraq əzab verdiyim sədaqətli dostuma xəyanət etmişdim. Amma gec idi. Artıq onun yerində üzümdə yeri alışıb yanan, həyatdan aldığım ilk solaxay sillə ilə bərabər, üzbəüz dayanıb, mənə baxıb rişxəndlə gülümsəyən, mənimçün utancverici və üzqarası olan iki ədəd yüz manatlıq vardı...

Bir müddət pianonun xiffətini çəkdim. Uşaqlıq illəri, onunla bağlı xoş xatirələr tez-tez yuxularıma qonaq gəldi.

Düşünürdüm ki, o, indi Allah bilir hansı evdə neçə insanın sevincinə şərik olur. Yəqin ki, o insan sevə-sevə aldığı pianosunu heç vaxt satmaz mənim kimi.

Bu yaxınlarda onun evimizə gəlişinin 40 illiyini səssizcə qeyd etdim. Tək, göz yaşları və xatirələrlə...

Dörd ildir xəstə üstünə çağırışlara gedəndə gözüm onu axtarır. Onu minlərlə pianonun içindən görüb tanıyaram. Günlər keçdikcə onun üçün çox darıxıram. Elə bil anamla bərabər bir əzizimi də itirmişəm. Sonradan evimizə bahalı royal alsam da, atamın yadigarını yeni aldığım royal əvəz etmədi. O yalnız gözəllik üçün, yaraşıq üçün qoyulmuşdu evə. Gələn qonaqları ehtişamı, əzəməti, parlaqlığı ilə valeh etsə də, mənim üçün o, soyuq və cansız bir əşya idi. Ona baxdıqca köhnə pianomla bağlı xatirələrim təzələnirdi. Günlər ötdükcə atamın qoyub getdiyi yadigarına sahib çıxa bilmədiyimə görə daha çox təəssüflənirəm...

Ədalət.- 2020.- 8 fevral. S. 15-16.